# İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, dünən keçirilən iclası açan komitə sədri Azər Əmiraslanov gündəliyə 1 məsələnin - "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin daxil edildiyini bildirib.

Layihənin komitənin təşəbbüsü ilə hazırlandığını deyən Azər Əmiraslanov Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlardan, bu qanun layihəsini zəruri edən məqamlardan danışıb. Komitə sədri milli təhlükəsizliyin iqtisadi təhlükəsizliklə sıx bağlı olduğunu qeyd edərək, bu qanun layihəsinin ölkəmizdə iqtisadi təhlükəsizlik sahəsində mühüm tədbirlərin görülməsi üçün hüquqi əsasların yaradılmasına xidmət etdiyini diqqətə çatdırıb. Azərbaycanın xarici investisiyaların cəlb olunmasında ciddi uğurlar əldə etdiyini deyən komitə sədri bunun ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi sayəsində mümkün olduğunu qeyd edib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin də dediyi kimi, son iki onillik ərzində ölkəmizə 350 milyardlıq xarici investisiya cəlb edilib ki, bu da kifayət qədər böyük göstəricidir.

Sonra komitə sədri gündəlikdəki qanun layihəsi barədə məlumat verərək diqqətə çatdırıb ki, hazırda investisiyalar investordan dövlət tərəfindən iki əsasla - dövlət ehtiyacları üçün və rekvizisiya məqsədilə (təbii fəlakətlər, texnoloji qəzalar, epidemiyalar baş verdikdə və fövqəladə xarakter daşıyan digər hallarda müvafiq dövlət orqanlarının qərarı ilə cəmiyyətin mənafeləri üçün) alına bilər. Hər iki halda investisiyanın dəyəri bu qanunun 13.3-cü və 13.4-cü maddələrinə uyğun olaraq kompensasiya ödənişinin edilməsi yolu ilə investora ödənilir.

Təklif olunan dəyişiklik investisiyanın dövlət tərəfindən alınmasının yeni bir əsasını müəyyən edir. Bu, strateji əhəmiyyətə malik investisiyalara münasibətdə Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya ölkəmizin milli maraqlarına zidd olan halların qarşısını almaq məqsədilə investisiyaların dövlət tərəfindən alınmasıdır.

Beləliklə, qanun layihəsi strateji əhəmiyyətə malik olan investisiyaların Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya ölkəmizin milli maraqlarına zidd olan müstəsna halların qarşısını almaq məqsədilə dövlət tərəfindən alınmasının hüquqi əsasını formalaşdırır. Qeyd olunan məqsəd üçün investisiyaların alınması ümumi qaydada, yəni investisiyaların dövlət tərəfindən alınması əvəzində investorlara kompensasiya ödənilməklə həyata keçirilə bilər.

İclasda çıxış edən komitə üzvləri Aydın Hüseynov, Vüqar Bayramov, Ziyad Səmədzadə, Azər Badamov və Rövşən Muradov qanun layihəsinin əhəmiyyətindən danışıblar, qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 11 fevral (№ 26).- S.6.